Jl. Mas Putih Blok D No 29
Permata Hijau Kebayoran Lama
Jakarta Selatan 12210
Tel. : 549 19 39
Fax : 549 17 45
E-mail: azjkt@azembassy.or.id

Azərbaycan Respublikasının Səfirliyi
Cakarta

# Press-reliz

İndoneziya Nümayəndələr Palatasının İndoneziya-Azərbaycan İkitərəfli Əməkdaşlıq qrupu 18 üzvü 21-24 iyun 2009-cu ildə Azərbaycana ilk səfərini edəcəkdir.

Qarşılıqlı maraq kəsb edən müxtəlif ikitərəfli və çoxtərəfli məsələləri müzakirə edilməsi məqsədilə nümayəndə heyətinin Milli Məclis Sədri Oqtay Əsədov tərəfindən qəbul edilməsi, Azərbaycan-İndoneziya Parlamentlərarası Dostluq qrupunun üzvləri, Milli Məclisin Beynəlxalq Münasibətlər və Parlamentlərarası Əlaqələr Komitəsinin üzvləri və Xarici İşlər Nazirliyinin rəhbərliyi ilə görüşləri nəzərdə tutulmuşdur.

Səfər çərçivəsində parlament üzvləri Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin məzarını və Şəhidlər Xiyabanını ziyarət edəcək, Heydər Əliyev adına Fondda, Azərbaycan Dillər Universitetində olacaq, Səngəcal neft terminalına səfər edəcəklər.

İndoneziya-Azərbaycan İkitərəfli Əməkdaşlıq qrupu 30 yanvar 2007-ci ildə, Milli Məclisin Azərbaycan-İndoneziya Parlamentlərarası Dostluq qrupu 5 dekabr 2000-ci ildə təsis edilmişdir.

Səfər Azərbaycanla İndoneziya arasında ikitərəfli əlaqələrin daha da inkişafına və iki dost ölkə arasında əməkdaşlığın genişləndirilməsinə töhfə verəcəkdir.

18 iyun 2009-cu il